1_Layout 1 29.07.2025 16:02 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 14 (702)

31 iyul 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# DÜNYA NÖVBƏTİ DƏFƏ AZƏRBAYCAN PREZİDENTİNİN ƏDALƏTLİ MÖVQEYİNƏ ŞAHİDLİK ETDİ

**“Azərbaycan” qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu “Dünya növbəti dəfə Azərbaycan Prezidentinin ədalətli mövqeyinə şahidlik etdi” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



“Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda Xankəndidə keçirilmiş III Şuşa Qlobal Media Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı, tədbirdə iştirak edən jurnalistlərin çoxsaylı suallarına verdiyi cavablar öz aktuallığı, əhəmiyyəti ilə dünya mətbuatının diqqətindədir.

Bu diqqət səbəbsiz deyil, dövlətimizin rəhbərinin səsləndirdiyi fikirlərin, ayrı-ayrı məsələlərə strateji baxışının təhlili əsasında Azərbaycanda, regionumuzda və ümumən dünyada gedən proseslərin inkişaf perspektivləri haqqında aydın qənaətlərə gəlmək mümkündür.

### Aydın, məqsədyönlü strategiya

“Yaşıl enerji” strategiyası bu gün müasir dünyamızın əsas çağırışlarındandır. Bu səbəbdən cənab İlham Əliyev çıxışında ölkəmizin “yaşıl enerji” strategiyası ilə bağlı məqamlara da toxundu. Bildirdi ki, ötən il COP29 kimi mötəbər qlobal tədbirə uğurla evsahibliyi etmiş Azərbaycanın bu strategiya üzrə bir sıra mühüm nailiyyətləri var. Neft-qazla zəngin ölkəmiz bu gün eyni zamanda həm də “yaşıl enerji”yə keçidi təmin edən lider dövlətlərdəndir. Azərbaycan yaxın illərə qədər həm neft-qaz ixracı, həm də günəş, külək və hidro enerjisi gücünün aktivləşdirilməsi ilə bağlı aydın planlara malikdir.

Prezident belə bir mövqedən çıxış etdi ki, enerji transformasiyası yönündə aparılan ardıcıl işlərlə yanaşı, neft-qazdan tamamilə imtina da planlanmır. Çünki hələ uzun illər həm yerli, həm də Avropa bazarlarında bu ehtiyatlara ehtiyac duyulacaq. Dövlətimiz bu istiqamətlər üzrə aydın strategiyaya malikdir və Mərkəzi Asiya ölkələri, Şərqi Avropa, Avropa İttifaqı ilə sıx əməkdaşlıq şəraitində geniş bir coğrafiyada öz mövqelərini getdikcə daha da möhkəmləndirir. Dövlətimizin başçısı dedi: “Ötən ilin noyabrında Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında “yaşıl enerji” ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi imzalandı ki, Mərkəzi Asiyada istehsal olunan “yaşıl enerji” Azərbaycanın infrastrukturuna birləşdirilsin. Ona qədər Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan arasında da buna bənzər sənəd imzalandı ki, belə bir “yaşıl enerji” kabeli Qara dənizin dibi ilə çəkilsin. Yəni region təkcə Cənubi Qafqazı əhatə etmir. Biz daha geniş coğrafiyanı əhatə edirik. Ancaq burada mərkəzi nöqtə məhz Azərbaycandır”.

Məlum olduğu kimi, COP29 zamanı Azərbaycanın səyləri nəticəsində diqqətdə saxlanılan əsas məsələlərdən biri də kiçik ada dövlətlərinə dəstək göstərilməsi ilə bağlı olmuşdu. Azərbaycan bu dövlətlərin nümayəndələrinin COP29-da iştirakının təmin olunmasına maliyyə dəstəyi də vermişdi.

### Zəfər davam edir

Azərbaycan Prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatının bu yaxınlarda Xankəndidə keçirilmiş sammiti haqqında da danışdı, bu sammitlə həmin təşkilata yeni nəfəs verildiyini vurğuladı. Həqiqətən, regional sabitliyin və iqtisadi əməkdaşlığın güclənməsi üçün bu addım böyük strateji əhəmiyyət daşıyır və yeni iqtisadi əməkdaşlıqlara, bütün tərəflər üçün mühüm fürsətlərə yol açır.

Bu baxımdan Zəngəzur dəhlizi də regionda kommunikasiyalar üçün dönüş nöqtəsi ola bilər. Dəhliz açılarsa, o, illik 15 milyon ton daşıma qabiliyyətinə malik olacaq. Zəngəzur dəhlizinin açılması bütün region ölkələri kimi, Ermənistana da fayda verəcək. Əgər bu ölkə irəli sürülən təkliflərdən boyun qaçırıb blokadanı davam etdirməyi üstün tutsa, həm nəqliyyat, həm də siyasi izolyasiyada qalacaq.

Azərbaycan isə Naxçıvana maneəsiz keçidi təmin etməyə və Orta dəhlizi region üçün praktik həllə çevirməyə davam etməkdədir. Bu, Azərbaycanın nəqliyyat-logistika imkanlarını genişləndirir və beynəlxalq əlaqələri gücləndirir.

Bütün bunlar, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ata vəsiyyətinin şanlı qələbəmizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasından sonrakı davamıdır. Azərbaycan Prezidentinə görə, “Ata vəsiyyəti” - yəni Qarabağda qələbə və həmrəylik ruhu indi də yaşamaqda davam edir.

Bu gün dövlətimiz azad torpaqlarımızda genişmiqyaslı quruculuq işləri həyata keçirir. Qarabağda, Şərqi Zəngəzurda reallaşdırılan layihələr dövlət rəhbərimizin də vurğuladığı kimi, dünya miqyasında həm maddi-zaman, həm də miqyas baxımından yeni bir presedentdir, yəni nümunədir. Bu, Azərbaycanın postmünaqişə dövründə regional brend olduğunu təsdiqləyən dönəmdir.

### Etibarlı tərəfdaş

Azərbaycanın özünün xarici siyasətində xalqı ilə dürüst kommunikasiya, tərəfdaşlarla etibarlı münasibət, qonşular və aparıcı dövlətlərlə sağlam dialoq beynəlxalq hüquqa riayət və coğrafi üstünlük kimi prinsipial elementlərə əsaslanır. Beynəlxalq təşkilatlarda liderlik rolu ilə yanaşı, bu prinsiplər ölkənin dünya arenasında uğurunu təmin edir.

Cənab İlham Əliyevin ölkəmizin xarici siyasətində mühüm yer tutan ABŞ-nin Prezidenti Donald Tramp haqqında səsləndirdiyi fikirlər, onun Azərbaycanla oxşar dəyərləri paylaşması və müharibələri bitirən lider olmasını vurğulaması da forumun yaddaqalan məqamlarından oldu. Dövlətimizin başçısı Trampın Ermənistan və Azərbaycan arasında sülh prosesinə töhfəsini qeyd etdi, Bayden Administrasiyasının anti-Azərbaycan siyasətini, 907-ci düzəlişi yenidən qüvvəyə mindirməsini təəssüf hissi ilə xatırlatdı. Bununla belə, vurğuladı ki, ABŞ ilə enerji, təhlükəsizlik və nəqliyyat sahəsində əməkdaşlığın davam etdirilməsi Azərbaycanın sağlam əsaslarla münasibətlərin inkişafı prinsiplərinə sadiqliyinin göstəricisidir.

ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidentinin ABŞ-Azərbaycan tərəfdaşlığı, həm qlobal, həm də regional səviyyədə sülh gündəminə sadiqliklə bağlı forumda səsləndirdiyi fikirləri özünün sosial media platformasında paylaşması İlham Əliyevin söylədiklərinin ən yüksək səviyyədə təqdir olunduğunu göstərir.

Azərbaycan Çinlə də strateji əməkdaşlıq əlaqələrinə malikdir. Qısa müddətdə Çinlə bir sıra strateji sənədlər imzalanıb, ölkələrimiz arasında viza rejiminin ləğvi, ticarət-logistika və “yaşıl enerji” sahəsində əməkdaşlığın hər il gücləndirilməsi Azərbaycana iqtisadi və siyasi faydalar gətirir.

Ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasından sonra Azərbaycan diplomatik imkanlarını xeyli genişləndirib və üzərinə mühüm tarixi missiya götürüb. İsrail -Türkiyə, İsrail-Suriya, eləcə də NATO-Rusiya arasında Azərbaycanın vasitəçilik təşəbbüsləri bu yeni diplomatik rolun parlaq nümunələridir.

Azərbaycanın Avropa İttifaqı ilə enerji əməkdaşlığı uğurla davam etdirilir, layihələr icra olunur. Avropaya qaz ixracı artıq genişləndirilib.

### Azərbaycan müstəqil siyasətinə sadiqdir

Azərbaycan yaxın qonşularla mehriban münasibətlər, qarşılıqlı əməkdaşlıq marağındadır, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpasından sonra Ermənistanla aparılan sülh proseslərinə sadiqdir. Bununla yanaşı, yaxın tarixdə Ermənistanın mövqeyini tez-tez dəyişməsi də faktdır və sabah onun yenidən mövqeyini dəyişməyəcəyi barədə zəmanət yoxdur. Ona görə də Azərbaycanın sülh müqaviləsinin imzalanması ilə bağlı şərtləri aydındır: Minsk qrupu ləğv edilməli, Ermənistanın Konstitusiyasına məlum səbəblər üzündən dəyişiklik edilməlidir. Bundan sonra sülhün əldə edilməsinə heç bir maneə qalmayacaq.

Qərb mediasında Azərbaycana qarşı həyata keçirilən qeyri-obyektiv informasiya kampaniyaları da sülh proseslərinin ziyanınadır, bu kampaniyaların arxasında Ermənistan mərkəzli lobbi təsirinin olduğu dərhal sezilir.

Azərbaycan Prezidentinin suallara cavablarında Rusiya ilə münasibətlərə də diqqət yönəldi, AZAL təyyarəsinin vurulması ilə bağlı Azərbaycandan gələn rəsmi sorğulara Rusiyanın cavab verməməsinin, bu mövzunun ikitərəfli münasibətlərə neqativ təsir göstərdiyi vurğulandı. Bütün hallarda Azərbaycan bu məsələ ilə bağlı haqlı tələblərində qərarlıdır və sonadək öz mövqeyini müdafiə edəcək.

Azərbaycan bu gün informasiya texnologiyaları sahəsində də sürətlə inkişaf edir. Ölkəmizdə mövcud olan sabitlik, təhlükəsizlik, qonşularla harmonik münasibətlər və rəqəmsal strategiyalar süni intellektin tətbiqinə imkan yaradır. Bütün bunlar şəffaf idarəetmə və innovativ dövlət modelini gücləndirir. Dövlət maraqlarına xidmət edən, strateji təhlillər verən və beynəlxalq mesajlarda aktiv rol oynayan media bu sahədə aparılmış məqsədyönlü islahatların, jurnalistlərin və media rəhbərlərinin peşəkar hazırlıq səviyyəsinin artması və media çevikliyinin nəticəsidir. Bütün bunlar 150 yaşı tamam olan Azərbaycan mediasının gəlib çatdığı inkişaf səviyyəsidir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ ƏMƏLİYYAT MÜŞAVİRƏSİ KEÇİRİLİB



İyulun 25-də Daxili İşlər Nazirliyində işğaldan azad olunan ərazilərdə xidmətin təşkili və ictimai təhlükəsizliyin təmin olunmasına dair onlayn formatda əməliyyat müşavirəsi keçirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə keçirilən müşavirədə bölgədə mövcud əməliyyat şəraiti, şəxsi heyətin xidməti fəaliyyəti və əhali ilə qurulmuş qarşılıqlı əlaqə təhlil edilib.

Qeyd olunub ki, həmin ərazilərdə ictimai qaydanın qorunması, yerli əhalinin, turistlərin, eləcə də əmlak və şəxsi təhlükəsizliyin təmin olunması, maarifləndirici-profilaktik tədbirlərin davam etdirilməsi prioritet istiqamətlərdən olmaqla diqqətdə saxlanılmalıdır.

Müşavirədə xüsusilə yanğın təhlükəsizliyi məsələlərinə geniş yer ayrılıb. Yay mövsümündə havaların isti və quraq keçməsi fonunda meşəlik və açıq sahələrdə yanğın təhlükəsinin artdığı, buna qarşı profilaktik tədbirlərin intensivləşdirildiyi vurğulanıb.

Aidiyyəti xidmət rəhbərlərinə bölgədə nəzarətin gücləndirilməsi, riskli sahələrdə fasiləsiz monitorinqin aparılması, vətəndaşlar arasında odla ehtiyatsız davranışın doğura biləcəyi təhlükələrlə bağlı davamlı izahat işlərinin həyata keçirilməsi, xidmətin yüksək peşəkarlıqla və əzmlə aparılmasının vacibliyi barədə konkret tapşırıqlar verilib.



Diqqətə çatdırılıb ki, müvafiq ərazilərdə asayişin təmini, əmlak və ekoloji təhlükəsizliyin qorunması, o cümlədən yanğınla bağlı məsuliyyət tədbirlərinin görülməsi sahəsində daxili işlər orqanlarının üzərinə düşən vəzifələr tam icra olunmalıdır.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRİ XİDMƏTƏ QƏBULLA BAĞLI NÖVBƏTİ SIRA BAXIŞI KEÇİRİB



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 28-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 214 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 28 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.07.2025 19:08 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ NÜMAYƏNDƏ HEYƏTİ "İDEF-2025" SƏRGİSİNDƏ İŞTİRAK EDİB

IDEF istanbul

İyul ayının 22-dən 27-dək Türkiyə Respublikasının İstanbul şəhərində Türkiyə Respublikası Prezident Administrasiyasının himayəsində, Milli Müdafiə Sənayesi Nazirliyinin iştirakı, Türkiyə Silahlı Qüvvələrini Gücləndirmə Fondunun rəhbərliyi və cavabdehliyi ilə 17-ci Beynəlxalq Müdafiə Sənayesi Sərgisi - "İDEF-2025" keçirilib.

Milli Müdafiə Sənayesi Nazirliyinin evsahibliyində, eləcə də müxtəlif hərbi və mülki qurumların dəstəyi ilə 1993-cü ildən etibarən, hər iki ildən bir keçirilən sərgidə dünyanın xeyli sayda hərbi sənaye şirkəti iştirak edib.

Sözügedən sərgidə ölkəmizi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər güc strukturlarının vəzifəli




şəxslərindən ibarət böyük nümayəndə heyəti təmsil edib. Daxili İşlər Nazirliyindən müvafiq sərgidə daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov və DQBİ-nin Maddi-texniki Təminat İdarəsinin avtomobil və zirehli texnika şöbəsinin rəisi polkovnik Fuad Alıyev iştirak ediblər.

Sərgi zamanı nümayəndə heyəti təhlükəsizlik və müdafiə sahəsində ixtisaslaşan dünyanın bir çox aparıcı şirkətinin yüksək texnologiyalı məhsullar və xüsusi vasitələr nümayiş etdirilən pavilyonlarına baş çəkib, bir sıra avadanlıqların təqdimatı ilə tanış olub.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# DÖYÜŞ HAZIRLIĞINI YÜKSƏK SƏVİYYƏDƏ SAXLAYAN İSTEHKAMÇI YARIMQRUPU



16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Dəstənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də istehkamçı yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı baş çavuş Kənan Kərimov söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların tapılaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan baş çavuş K.Kərimov ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.

Hərbi hissənin qərargahının kimya və mühəndis xidmətinin rəisi mayor Fuad Ağayev də istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu diqqətə çatdırdı.

Baş çavuş K.Kərimov yarımqrupun nümunəvi hərbi qulluqçularından çavuşlar İbrahim Kutlasov və Mahmud Cəfərlinin adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını vurğuladı.

**kapitan Nigar Ağayeva**

# BATAREYA VƏZİFƏLƏRİNİ UĞURLA YERİNƏ YETİRMƏK QABİLİYYƏTİNDƏDİR

Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan 16073 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və intizamı ilə seçilir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keyfiyyətlə keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə minaatan batareyanın komandiri baş leytenant Səbuhi Əhmədzadənin zəhməti danılmazdır.







Minaatan batareyanın vəzifələri barədə danışan baş leytenant S.Əhmədzadə bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün xüsusi təyinatlı bölmələri atəş dəstəyilə təmin etməkdən ibarətdir.

Qarşıya qoyulmuş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir. Minaatan batareya komandirinin müavini-batareyanın baş zabiti baş leytenant Sənan Əlizadə məhz bu cür hərbi qulluqçulardan biridir. O, batareyanın planlaşdırılmış tədbirlərinin hazırlanmasında, həyata keçirilməsində iştirak edir, döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasına cavabdehdir.

Minaatan batareya komandirinin tərbiyə işləri üzrə müavini leytenant Fərid İbrahimov şəxsi heyətin mənəvi-psixoloji durumunun stabil olması üçün çalışır, ictimai-siyasi hazırlıq məşğələlərinin keçirilməsini və tərbiyə işi tədbirlərinin təşkilini təmin edir.

Bölmə komandiri funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan leytenant Əjdər Əsədli, baş çavuşlar Heydər Heydərov, Şəhriyar Mikayılov, əsgərlərdən Nihad Əsgərov və Elton Quliyevin adlarını çəkərək bildirdi ki, batareya istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**kapitan Nigar Ağayeva**

# ƏZMKARLIĞI VƏ ÇEVİKLİYİ İLƏ FƏRQLƏNƏN XÜSUSİ TƏYİNATLI DƏSTƏ

Silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq digər xüsusi təyinatlı bölmələr kimi 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin əsas vəzifələrindəndir. Dəstənin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək verilən tapşırıqların öhdəsindən layiqincə gəlir.





İlin istənilən fəslində, müxtəlif relyefli ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə



malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər. Qeyd edim ki, dəstə cari ilin ötən yarımilini müvəffəqiyyətlə başa vuraraq hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.

Dəstə komandiri mayor Elnur Qasımov bildirdi ki, xüsusi təyinatlı dəstənin şəxsi heyətinin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının və dünyagörüşlərinin düzgün formalaşmasına xüsusi önəm verilir. Şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi üçün xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi mayor Taleh Rüstəmlinin xidmətini tələblərə uyğun olaraq təşkil etdiyini, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Bilal Məmmədovun əməyini də vurğulamağı unutmadı.

Bölmənin fəaliyyətinin spesifikliyi barədə danışan komandir məlumat verdi ki, təlimlərin müxtəlif hava şəraitində təşkil olunub keçirilməsi diqqət mərkəzində saxlanılır. O, xüsusi təyinatlıların hazırlıqlarının hərbi hissə komandanlığı tərəfindən yüksək qiymətləndirildiyini, şəxsi heyətin döyüş tapşırıqlarını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi: "Döyüş təlimi müvafiq plana əsasən təşkil olunur və keçirilir. Bu zaman əsas diqqət dəstənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsinə yönəldilir. Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, hərbi intizamın möhkəmləndirilməsi və sayıqlığın artırılması, fiziki və psixoloji gərginliyə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin, şücaətin və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir".

Mayor E.Qasımovun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.





Zabit dedi ki, şəxsi heyətin yüksək döyüş hazırlığı ilə yanaşı, hərbi intizamının qorunub saxlanılması və sayıqlığının artırılması da daim nəzarətdə saxlanılır: "Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərə diqqət yetirilməsi döyüş hazırlığının artırılmasına xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır".

Sonda mayor E.Qasımov şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan leytenant Şahin Hüseynli, baş gizir Dəyanət Allahverdiyev, baş çavuşlar Kərim Kərimov və Rizvan Məhərrəmovun adlarını çəkdi, onların yoldaşlarına nümunə olduqlarını söylədi.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 29.07.2025 15:59 Page 1



# ŞƏHİDLƏRİMİZİN ADLARINI UCA TUTMAQ HƏR BİR VƏTƏN ÖVLADININ BORCUDUR

Vətən torpağı uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın adları xalqımız tərəfindən həmişə uca tutulur. Onların xatirələri ehtiramla anılır, ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyətləri gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.



Daxili İşlər Nazirliyinin rəhbərliyi



və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.

16073 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Azər Paşayevin rəhbərliyi ilə bir qrup şəxsi heyətin Daxili Qoşunların şəhid hərbi qulluqçuları gizir Mayis Səmədovun Xaçmaz rayonunun Qadaşoba kəndində və baş çavuş Surxay Mehdiyevin Quba şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. Öncə hərbi qulluqçularımız tərəfindən şəhidlərimizin məzarları ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlıların xatirələri anılaraq məzarlarına gül dəstələri qoyulub.

Şəhid Mayis Səmədovun ailəsi ilə tanışlıq məqsədilə onun böyüyüb, boya-başa çatdığı ata ocağında qonaq olduq. Qapıya gələn hərbi qulluqçuları Mayisin silahdaşları kimi qarşılayan ailədə olduqca səmimi bir ortam müşahidə etdik. Şəhidin anası Əzizə Səmədova və bacısı Kəmalə Babayeva onun haqqında xatirələrini böyük qürur hissi ilə danışdılar.

Qeyd edək ki, gizir Mayis Səmədov 1977-ci il iyulun 28-də Xaçmaz rayonunun Qadaşoba kəndində anadan olub. Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə 16073 saylı hərbi hissədə 2004-cü ilin fevral ayında qəbul olunub. 2019-cu ilin mart ayından 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunda baş istehkamçı-yarımqrup komandiri vəzifəsinə irəli çəkilib.

Yaxşı yadımdadır, 2019-cu ildə hərbi hissəyə xidməti ezamiyyətim zamanı hərbi hissə komandiri yüksək döyüş hazırlıqlı, peşəkarlığı ilə fərqlənən ən yaxşı hərbi qulluqçulardan biri kimi onu tərifləmiş, haqqında məqalə yazılmasını təklif etmişdi. Həmin vaxt heç ağlıma da gəlməzdi ki, haqqında əzmkar hərbi qulluqçu kimi yazdığımız gizir M.Səmədovun cəsur döyüşçü kimi əsl sınağı hələ irəlidədir. 44 günlük Vətən müharibəsi zamanı döyüş əməliyyatlarına qatıldığı ilk gündən müqəddəs borcunu şərəflə yerinə yetirən komandir içdiyi hərbi anda sadiq qalmağı bacarıb.

5 oktyabr 2020-ci il tarixdə Cəbrayıl-Füzuli rayonları istiqamətində gedən döyüş Mayisin son döyüşü oldu. 7 nəfər silahdaşı ilə birgə ön mövqedəki əsgərlərimizə lazımi təminat çatdırmaq üçün gedərkən yolda pusquda dayanan mənfur düşmənin mühasirəsinə düşən igid hərbi qulluqçumuz özünü itirmir və qəflətən baş vermiş döyüşdə onlarla erməni yaraqlısını məhv edir. Lakin çox təəssüflər olsun ki, bu qeyri-bərabər döyüşdə gizir Mayis Səmədov əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlir.

Azərbaycan Respublikası Prezidentinin 15 və 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Səmədov Mayis Şadıbəy oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.



Sonra Quba şəhərində yaşayan şəhid baş çavuş Surxay Mehdiyevin ailəsinə baş çəkilib. Şəhidin anası Rəsmiyyə Mehdiyeva, həyat yoldaşı Vüsalə Mehdiyeva hərbi qulluqçularımızı mehribanlıqla qarşılayaraq, onları görməkdən məmnun olduqlarını bildiriblər.

Məlumat üçün qeyd edək ki, baş çavuş Surxay Mehdiyev 1985-ci il dekabrın 7-də Ağdam rayonunun Xıdırlı kəndində anadan olub. Mehdiyevlər ailəsi 1993-cü il iyulun 23-də Ağdam rayonu işğal olunduqdan sonra məcburi köçkün həyatını yaşamağa başlayıb. Əvvəlcə Bakıya köçüblər, sonra isə Quba rayonunda məskunlaşıblar. Doğma yurdun düşmənin əlinə keçməsinin yaratdığı sarsıntı və məcburi köçkün həyatının əziyyətləri uşaq yaşlarından Surxayın yaddaşında silinməz iz qoyub.

Vətən müharibəsi zamanı Surxayın döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərindən keçib. Düşmənin müdafiə xəttinin yarılması, onun mövqelərinin ələ keçirilməsi, bir sıra yaşayış məntəqələri və yüksəkliklərin işğaldan azad olunması uğrunda döyüşlərdə qətiyyətlə vuruşub, onlarla işğalçını məhv edib. 2020-ci il oktyabrın 19-da Füzuli-Xocavənd



istiqamətində gedən döyüş zamanı onun və digər hərbi qulluqçularımızın yerləşdikləri mühüm mövqenin düşmən tərəfindən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulması nəticəsində güllə və mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncamlarla baş çavuş Mehdiyev Surxay Zülfi oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Sonda polkovnik-leytenant A.Paşayev şəhidlərimizin fədakarlığı sayəsində ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edərək, Silahlı Qüvvələrimizin həyata keçirdiyi uğurlu antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində respublikamızın suverenliyini tam bərpa etməsi barədə danışıb. Qeyd edib ki, Vətən uğrunda canlarını qurban verən şəhidlərimizin və sağlamlıqlarını itirən qazilərimizin keçdikləri döyüş yolu, göstərdikləri şücaət nümunələri şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə edilməsi baxımından geniş təbliğ olunur, şəhid ailələrinə və qazilərə mütəmadi olaraq baş çəkilir: “Nə qədər Azərbaycan xalqı var, Vətən uğrunda canından keçən Mayis kimi, Surxay kimi oğullarımızın da əziz xatirələri hər zaman qəlblərdə yaşayacaq. Ərazi bütövlüyümüzün təminatçıları olan bu igid hərbçilərə, kiçikdən böyüyə, hər birimiz özümüzü borclu bilməli və onların ailə üzvlərinə, övladlarına yüksək diqqət və qayğı ilə yanaşmalıyıq. Çünki bütün şəhidlərimiz azad, firavan, bütöv Azərbaycan uğrunda şirin canlarından keçiblər. Bu amili yaşından, vəzifəsindən asılı olmayaraq hər bir azərbaycanlı unutmamalı, şəhid ailələrinin rifahı naminə hər cür köməkliyi göstərməyi özünə borc bilməlidir”.

**kapitan Nigar Ağayeva**

---

*Qazilərimiz*

# MUROVDAĞDAN CƏBRAYILADƏK DÜŞMƏNƏ QARŞI CƏSURLUQLA DÖYÜŞƏN XÜSUSİ TƏYİNATLI

Xalqımız uzun illər müharibənin gətirdiyi iztirab və məhrumiyyətlərə dözüb, ancaq bu gerçəkliklə heç vaxt barışmayıb. Soyqırıma, insanlıq əleyhinə vəhşiliklərə məruz qalmış, məcburi köçkün düşmüş həmvətənlərimizin və xarabalığa çevrilmiş yurdlarımızın faciəsi bizi düşməndən qisas almağa səsləyib.

Birinci Qarabağ müharibəsi nəticəsində işğal olunmuş torpaqlarımızı geri almaq, ərazi bütövlüyümüzü bərpa etmək dövlətimizin qarşıya qoyduğu strateji vəzifə olub. 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri zamanı işğalçı erməni ordusu darmadağın edilərək Şərqi Zəngəzur, habelə Qarabağ bölgələrində ölkəmizin suverenliyi tam bərpa olunub. Təcavüzkar Ermənistan məğlub tərəf olaraq kapitulyasiya aktını imzalayıb.

Şanlı zəfərimiz milli qürurumuzu özümüzə qaytarıb, döyüş ruhumuzu dirçəldib, şəhidlərin və qazilərin qanları tökülən torpaqlarımızı yağı tapdağından azad edib, xalqımızın adını tarixə qalib olaraq yazıb.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Vətən müharibəsində şərəfli döyüş yolu keçib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən hərbi qulluqçularımızın ön cəbhədə göstərdikləri igidlik nümunələri yüksək qiymətləndirilib.

Sabiq hərbi qulluqçumuz, ehtiyatda olan baş çavuş Behbudlu Tofiq Elşən oğlu Vətən müharibəsi qazisidir. O, 1993-cü il noyabrın 29-da Beyləqan şəhərində doğulub. Elşən Behbudov və Əsmər Abbasovanın iki oğul övladından yaşca kiçiyidir. Atası təcrübəli polis əməkdaşı olub və xidmətini başa çatdırıb, anası isə Beyləqan Rayon Mərkəzi Xəstəxanasında tibb bacısı işləyir. Qardaşı Sakit Behbudlu Beyləqan Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyü komandirinin müavini, polis mayorudur, vətəndaşlarımızın asayişinin keşiyindədir. Hər iki qardaş valideynləri tərəfindən ləyaqətli və qeyrətli oğullar kimi yetişdirilib. Ailədə aldıqları mənəvi tərbiyə onları həyat yolunda düzgün istiqamətləndirib.

Tofiq Beyləqan şəhərində yerləşən Mehdi Mehdizadə adına 3 saylı tam orta məktəbi bitirib. Orta məktəbdə təhsil alarkən tarix, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Məktəbli ikən hərbçi olmağı arzulayıb, özünü bu peşəyə yiyələnməyə hazırlayıb.

Yunan-Roma güləş növü ilə uşaqlıqdan məşğul olmuş Tofiq idmançı kimi öz fiziki gücü və məharəti ilə seçilib, sağlam həyat tərzini həmişə qoruyaraq saxlayıb.

2012-ci ilin aprel ayından 2013-cü ilin oktyabr ayınadək o, Müdafiə Nazirliyinin tabeliyindəki “N” saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək ordu sıralarından tərxis olunub.

2014-cü ilin yanvar ayında Tofiq öz arzusu ilə DİN-in Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilib. Beləliklə, həyatını hərbçi peşəsinə həsr etməyə qərar verib. 16073 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, xüsusi təyinatlı dəstənin atəş təminatı qru-



punun AQS-17 qumbaraatan, habelə dəzgahlı qumbaraatan yarımqruplarının heyət nəfəri, xüsusi həmlə qrupunun pulemyotçusu vəzifələrində xidmət edərək komandanlığın etimadını doğruldub. Xidmət müddətində müxtəlif mükafatlara layiq görülüb. Silahdaşları arasında özünə hörmət qazanıb. Dəstənin şəxsi heyəti ilə keçirilən təlim və məşğələlərdə döyüş hazırlığını, peşə bacarıqlarını təkmilləşdirib, hərbi bilikləri həvəslə öyrənib. Təhkim olunan silahların taktiki-texniki xüsusiyyətlərini mükəmməlcəsinə mənimsəyib. Fiziki hazırlığında yüksək nəticələr nümayiş etdirib.

Quba, Qusar, Xaçmaz, Siyəzən rayonlarının ərazilərində ictimai asayişin və təhlükəsizliyin qorunması üzrə xidmətə cəlb olunan Tofiq qarşıya qoyulan tapşırıqları qətiyyətlə yerinə yetirib. Bununla yanaşı, koronavirus pandemiyası dövründə karantin rejiminin təmin olunması məqsədilə xidmətə çıxaraq, üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşıb. Həmçinin bəzi beynəlxalq idman tədbirləri zamanı aparılan xidmətdə sayıqlıq göstərib.

2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsi hərbi qulluqçu kimi Tofiqin həyatının ən çətin və şərəfli sınağı idi. Həmin vaxt 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti də ön cəbhəyə göndərilib. Dəstənin hərbi qulluqçuları ayrı-ayrı istiqamətlərdə Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə döyüş əməliyyatlarına qatılıblar. Onların arasında Tofiq də olub. O, Murovdağ silsiləsinin bəzi yüksəklikləri, Ömər aşırımı, eləcə də Füzuli və Cəbrayıl rayonları uğrunda cəsurluqla vuruşaraq, pulemyot silahı ilə işğalçılara qan uddurub. Onun cəsarətli həmləsi və sərrast atəşi nəticəsində düşmənə məxsus atəş nöqtələri susdurulub. Təcavüzkar erməni ordusunun müdafiə xəttinin yarılmasında öz şücaəti ilə fərqlənib.

Oktyabrın 7-də Cəbrayıl şəhərində düşmənin artilleriya atəşi nəticəsində partlayış travması alıb və mərmi qəlpələri bədəninin müxtəlif nahiyələrini yaralayıb. Döyüşçü yoldaşı Əfqan ona ilk tibbi yardım göstərib və Tofiq arxaya təxliyyə olunub.

Müdafiə Nazirliyinin bölgədəki hərbi qospitalına yerləşdirilib, lakin qısa müddət sonra Daxili Qoşunların Hərbi Qospitalına köçürülüb, xüsusi təyinatlının üzərində cərrahiyyə əməliyyatı aparılaraq çoxlu sayda qəlpə bədənindən çıxarılıb. Yaralanmanın müəyyən fəsadları ilə əlaqədar bəzi mülki xəstəxanalarda da müalicə kursu keçib. Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətinin hərbi-həkim komissiyası tərəfindən verilən xəstəlik haqqında şəhadətnamədə hərbi qulluqçunun sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı olduğu barədə qeydlər öz əksini tapıb.

2021-ci ilin noyabr ayında Tofiq səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Qaziyə II dərəcəli əlil olaraq müvafiq pensiya təyin olunub, dövlət tərəfindən mənzil verilib.

Azərbaycan Respublikası Prezidentinin 24, 29 dekabr 2020-ci il, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, o cümlədən müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə baş çavuş T.Behbudlu “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” və “Şücaətə görə” medalları ilə təltif edilib.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib.

Vətən müharibəsi zamanı 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyətindən 6 nəfər şəhadətə yüksəlib, onlarla hərbi qulluqçu isə yaralanıb.

Xüsusi təyinatlı ilə birgə xidmət etmiş və döyüş yolu keçmiş silahdaşlarına onun haqqında suallar ünvanladım. 17071 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Əhməd İsmayılov, ehtiyatda olan mayor Elşən Məmmədov, ehtiyatda olan gizir Bəhruz Həsənli, 16073 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun yarımqrup komandiri gizir Emil Abuzarlı, ehtiyatda olan baş çavuş Əfqan Zaxmayev, 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun baş atıcısı kiçik çavuş İntiqam Fəttayev söylədilər ki, Tofiq vətənpərvər, hərbi anda sadiq, çalışqan, əldə etdiyi uğurlarla arxayınlaşmayan, istənilən çətinliyin öhdəsindən gələ bilən, döyüş sınağında mərdliyi və fədakarlığı örnək göstərilən hərbi qulluqçu olub.

Qeyd edim ki, Tofiqin qohumları Telman Yaqubov və Fərman Yaqubov Vətən uğrunda şəhidlik zirvəsinə ucalıblar.

Qazi evlidir, Lamiyə xanımla ailə qurub. Hazırda paytaxtın Sabunçu rayonundakı yeni mənzilində yaşayır. Səhhəti ilə bağlı işləmir, aidiyyəti tibb müəssisələrində müalicə kursu keçir. Dövlətimizin qayğısı, doğmalarının sevgisi, onu tanıyanların diqqət və dəstəyi qaziyə mənəvi güc verir.

Torpaqlarımızın işğaldan azad olunmasına layiqli töhfələr vermiş Tofiq kimi oğullarla xalqımız qürur duyur.

**Yalçın Abbasov**

4_Layout 1 29.07.2025 16:01 Page 1



# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

Hərbi İnstitutun maddi-texniki təminat şöbəsinin ərzaq xidmətinin rəisi mayor Samir Mehdiyev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların komandanlığının və Hərbi İnstitutun rəhbərliyinin qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Mayor S.Mehdiyev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik qida menyusunda mövsümi salatlar və meyvə şirələri qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil olunduğunu bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit görülən işlərdə baş gizir Faiq Məmmədovun və baş çavuş Mansur Xasməmmədzadənin zəhmətlərini xüsusilə vurğuladı. Onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında aşpazlardan Xavər Əsgərovanın, Natavan Əmirovanın və Nuranə Hacıyevanın fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

# İNTİZAMLI VƏ BACARIQLI TEXNİK

17074 saylı hərbi hissənin nümunəvi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri baş çavuş Elnur Məmmədovdur. O, əzmkar xidməti, intizamı ilə yoldaşlarına örnəkdir.

Hərbi qulluqçumuz 1990-cı ilin sentyabr ayının 29-da Şəki rayonunun Çayqaraqoyunlu kəndində anadan olub. Doğulub boya-başa çatdığı kənddə yerləşən tam orta məktəbdə təhsil alıb. 2008-ci ildə məktəbi bitirib. 2008-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2010-cu ilin aprel ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət keçib.

2012-ci ilin iyun ayından Daxili Qoşunların sıralarındadır. 17074 saylı hərbi hissədə müxtəlif vəzifələrin öhdəsindən layiqincə gəlib. Hazırda xüsusi vasitələrin



tətbiqi dəstəsinin texniki vəzifəsində xidmətini davam etdirir. Dəstə komandiri mayor Seymur Mehralıyev tərəfindən müsbət xarakterizə olunur. Əzmkarlığı ilə seçilir, qoyulan tapşırıqları keyfiyyətlə icra edir. Bölmənin texnikalarının quruluşunu, istismar qaydalarını və təmirinin əsaslarını bilir, nasazlıqlar olduqda dərhal onları aradan qaldırır.

Yüksək döyüş və mənəvi-psixoloji hazırlığı ilə yoldaşlarına nümunə olmağı bacaran hərbi qulluqçumuz dəfələrlə hərbi hissənin və dəstənin komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Baş çavuş E.Məmmədova bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**17074 saylı hərbi hissənin statdankənar müxbir postu**

*Həkim məsləhəti*

# GÜNVURMA VƏ İSTİVURMANIN TƏSİRİNDƏN NECƏ QORUNMALI?

Yay mövsümündə havanın hərarətinin yüksək olması, atmosfer təzyiqinin normadan yuxarı qalxması insanlarda, xüsusən də meteohəssas insanlarda ciddi fəsadlar yaradır. Qızmar günəş şüaları altında uzun müddət fasiləsiz işlə məşğul olmaq, yürüşlər etmək insanları günvurma və istivurma kimi real təhlükələrlə üzləşdirir. Bu baxımdan belə təhlükələrdən qorunmaq məqsədilə şəxsi heyətin tibbi maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir.



Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində, əksər hallarda başıaçıq xeyli müddət gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zərərçəkəndə zəiflik, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürəkbulanma, qusma, hərarətin



40 və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, digər hallarda isə açıq günəş altında qaldıqdan və evə gəldikdən bir neçə saat sonra baş verir.

**Günvurmanın ilkin əlamətləri hiss olunduqda:**

**1.** Zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (başı bədənindən yuxarıda olmalıdır).

**2.** Zərərçəkənə soyuq su vermək, üzünü və sinəsini soyuq su ilə silmək, başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompres etmək lazımdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Daha bir üsul isə paltarını soyundurub zərərçəkəni soyuq suda isladılmış parçaya bükmək, başına buz qoymaqdır.

**3.** Zərərçəkənin hərarəti normaya çatdıqda onu quru parçaya və ya dəsmala bükmək olar.

**4.** Xəstənin vəziyyəti ağırlaşarsa, dərhal təcili tibbi yardım çağırmaq lazımdır.

**5.** Huşunu itirdiyi halda isə zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda süni tənəffüs vermək tələb olunur.

**İstivurma əsasən uzun müddət ərzində havası boğanaq olan yerlərdə (hamamda, saunada, avtobusda, metroda və s.) qalma zamanı, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyimdən istifadə edildiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oyunlar oynanıldığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün istivurma onlarda daha tez-tez rast gəlinir.**

İstivurma qəflətən meydana çıxır: ilk baxışdan kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, onun hərarəti 40 və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və halusinasiyalar (qarabasmalar) baş verir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdənbirə avazıyır. Nəbz sürətlənir, tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir. Bu zaman ilk tibbi yardım günvurmada olduğu kimidir.

Zərərçəkənin vəziyyəti ağırlaşarsa, dərhal təcili tibbi yardım çağırmaq və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırmaq lazımdır.

**Tibb xidməti**

## HƏRBİ XƏBƏRLƏR - YENİLİKLƏR -

### Belçika NH90 taktiki nəqliyyat helikopterlərini istismardan çıxarır

Belçika dörd ədəd "NHIndustries" NH90 taktiki nəqliyyat helikopterini cari ilin sentyabr ayından etibarən Silahlı Qüvvələrin istismarından çıxaracaq. "Poliqon" xəbər verir ki, bu barədə Belçikanın müdafiə naziri özünün "X" hesabında paylaşım edib.

Paylaşımda NH90-ların istismardan çıxarılmasını əsaslandıran nazir bunun pis tədarük olduğunu və sözügedən helikopterlərin baximının son dərəcə baha başa gəldiyini qeyd edib.



Nazir bildirib ki, 2026-cı ildə NH90-ların əvəzinə yeni helikopterlər gələcək.

*NÜMUNƏVİ XİDMƏT*

# HƏYATININ 17 İLİNİ HƏRBİ XİDMƏTƏ HƏSR EDƏN MUSİQİÇİ

Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin mahnı ansamblının hərbi dirijoru baş gizir Səbuhi Allahverdiyev 17 illik çətin və şərəfli xidmət yolu keçib. O, 1978-ci il iyunun 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Maxta kəndində anadan olub. Hələ uşaq yaşlarından musiqiyə marağı olan Səbuhi musiqiçi kimi yetişmək arzusunu reallaşdırmaq üçün 1985-1992-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb. 7-ci sinifdən isə Azər Zeynalov adına İncəsənət Gimnaziyasına qəbul olunub. 1995-ci ildə gimnaziyanı bitirən Səbuhi həmin ildən 1999-cu ilə kimi Üzeyir Hacıbəyli adına Musiqi Akademiyasında ali təhsil alıb.

Müddətli həqiqi hərbi xidmətini 2001-2002-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. 2008-ci ildən bu günə kimi Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrində xidmətini şərəflə davam etdirir.

Özünü musiqisiz bir an belə təsəvvür etməyən müsahibim orkestrin kollektivində peşəkar ifaçıların olduğunu, zaman-zaman bu kollektivdə məşhur incəsənət xadimləri ilə çiyin-çiyinə çalışdığını xüsusilə vurğuladı.



Peşəsinin bilicisi olmaqdan əlavə, o həm də çox intizamlı, xidmətə vicdanlı münasibətilə fərqlənən hərbi qulluqçu kimi xarakterizə olunur. Kollektivdə özünə hörmət qazanmağı bacarıb.

**kapitan Nigar Ağayeva**

# QAYĞIKEŞ VƏ MƏSULİYYƏTLİ SANİTAR-TƏLİMATÇI

17074 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri gizir Daşqın Məmmədovdur. O, məsuliyyəti və intizamı ilə yoldaşlarına örnəkdir.

Gizir D.Məmmədov 1996-cı ilin sentyabr ayının 6-da Zaqatala rayonunun Lahıc kəndində anadan olub. 2002-2013-cü illərdə şəhid Qoca Qocayev adına Lahıc kənd tam orta məktəbində təhsil alıb. 2013-2015-ci illərdə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində hərbi feldşer işi ixtisası üzrə təhsilini davam etdirib. 2015-2021-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində "gizir" hərbi rütbəsində, feldşer vəzifəsində xidmət edib.

2021-ci ilin may ayından Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsinin sanitar-təlimatçısı vəzifəsində xidmətini davam etdirir. Dəstənin komandanlığı və hərbi hissənin tibb xidməti rəisi tərəfindən müsbət xarakterizə olunur.

Nümunəvi xidmətinə görə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)" yubiley və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif edilib, eləcə də dəfələrlə hərbi hissənin və dəstənin komandanlığı tərəfindən mükafatlandırılıb.

Məlumat üçün qeyd edək ki, gizir D.Məmmədovun qardaşı Vüsal Məmmədov könüllü olaraq 44 günlük Vətən müharibəsində iştirak edib. Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının işğaldan azad edilməsi uğ-




runda aparılan döyüş əməliyyatlarında cəsarətlə vuruşub. 2020-ci il oktyabrın 10-da Xocavənd rayonunun Hadrut qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Vüsal Məmmədov ölümündən sonra müxtəlif orden və medallarla təltif edilib.

Gizir D.Məmmədov şəhid qardaşının xatirəsini uca tutur, onun adına layiq xidmət etmək hərbçinin əsas həyat amalıdır.

**17074 saylı hərbi hissənin statdankənar müxbir postu**

# HƏRBİ XİDMƏT BORCUNA VİCDANLA YANAŞAN ƏSGƏR

16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi vasitələrin tətbiqi dəstəsinin intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan əsgər Elcan Əliyev xüsusi vasitələrin tətbiqi bölməsində xidmət edir. Bölmə komandiri tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər E.Əliyev 2003-cü il iyulun 12-də Bakı şəhərində anadan olub. 2008-2019-cu illərdə paytaxtın Xətai rayonunda yerləşən Humanitar fənlər təmayüllü liseydə orta təhsil alıb. 2019-2024-cü illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində memar ixtisasına yiyələnib. 2024-cü ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi andı qəbul etdikdən sonra xidmətini davam etdirmək üçün 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi vasitələrin tətbiqi dəstəsinə göndərilib. Silahdaşları arasında özünə hörmət



qazanan əsgər E.Əliyev verilən tapşırıqların icrasında sayıqlıq göstərir, onları keyfiyyətlə yerinə yetirir.

**16077 saylı hərbi hissənin statdankənar müxbir postu**

## Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin komandanlığı mayor Elşən Hüseynova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000